# Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf strategiyasının xülasəsi

## Strateji Plan nədir və nə üçün lazımdır?

***Mingəçevir Dövlət Universitetinin (MDU) 2030-cu il üçün inkişaf strategiyası*** – universitetin uzunmüddətli inkişaf istiqamətlərini müəyyən edən əsas sənəddir. Bu strategiya MDU-nun gələcəkdə hansı mövqeyə çatmaq istədiyini və bu məqsədə necə nail olacağını göstərən yol xəritəsidir. Universitetin modernləşməsi, beynəlxalq standartlara uyğun təhsil verməsi və elmi-tədqiqat potensialının gücləndirilməsi üçün əsaslı addımları əks etdirir.

Mingəçevir Dövlət Universitetinin İnkişaf strategiyasını hazırlamaq üçün 23.09.2020-ci il tarixli 202 nömrəli əmrə əsasən Komissiya yaradılmışdır. Komissiyanın tərkibinə inzibati heyət, professor-müəllim heyəti və digər maraqlı tərəflərin nümayəndələri daxil edilmişdir. 23.02.2021- ci il tarixində Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf strategiyası Elmi Şura tərəfindən təsdiq edilmişdir. 30 yanvar 2024-cü il tarixində isə yenidən redaksiya olunaraq MDU Elmi Şurası tərəfindən təsdiq edilmişdir. Strategiya ilk olaraq ümummilli lider Heydər Əliyevin “Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.” və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir.” təhsil haqqında fikirləri ilə başlanılır. Daha sonra strategiyada MDU-nun sloqanı (**Müasir təhsil, Doğru seçim, Uğurlu karyera**) və mündəricat qeyd olunub. Mündəricatda başlıqlar şəklində strategiyada yer alan mövzular qeyd olunub.

## MDU 2030 İnkişaf Strategiyası niyə vacibdir?

- Universitetin gələcək inkişaf istiqamətini müəyyən edir.
- Akademik keyfiyyəti və beynəlxalq rəqabət qabiliyyətini artırır.
- Resursların səmərəli istifadəsinə imkan yaradır.
- Mingəçevir və region üçün innovativ inkişaf mərkəzinə çevrilməyə kömək edir və s.

## MDU 2030 İnkişaf Strategiyası hansı əsas sənədlər, istiqamətlər və məqsədlər əsasında formalaşdırılmışdır?

Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf strategiyası 2030-cu ilə qədər əsas fəaliyyətləri və gələcək hədəfləri özündə ehtiva edir. Sənədin hazırlanması zamanı MDU-nun real və potensial imkanları, həmçinin, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, milli və beynəlxalq ali təhsil məkanında baş verən əsas trendlər nəzərə alınmışdır. MDU-nun diqqət mərkəzində duran məsələlərdən biri də Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik” sənədindən və dövlətin dayanıqlı inkişaf siyasətinin prioritetlərindən irəli gələrək MDU-nun dayanıqlı inkişaf əsaslı universitetə çevrilməsi, potensial resursları səfərbər etmək, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlıq qurmaq, sənaye ilə səmərəli işbirliyi yaratmaq, tələbə gənclərə yeni dövrün tələblərinə uyğun bilik və bacarıqlar qazandırmaq, regional inkişafın hərəkətverici qüvvəsinə çevrilməkdir. Strateji plan ölkəmizin ixtisaslı insan

resurslarına olan tələbatını ödəmək və gələcək nəsillərə yönəlik fəaliyyətlərə nail olmaq üçün qəbul etdiyi məqsəd və hədəflərə təhsil, elmi-tədqiqat və institusional infrastrukturu təkmilləşdirəcək dəyişiklikləri, həmçinin, universitetimizdə hesabatlılığın, şəffaflığın və resurslardan səmərəli istifadənin təmin edilməsini, universitetin müəyyən etdiyi missiya və vizyonu, strateji məqsədləri və hədəfləri ölçməklə bütün prosesi izləməyi və qiymətləndirməyi əks etdirir.

## Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf Strategiyasının strukturu necə təşkil olunmuşdur?

Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf strategiyası **7** bölmə, **7** blok, **7** məqsəd, **27** hədəf və **235** fəaliyyətdən ibarətdir.

### Bölmələr:

***I. Bir Baxışda Strateji Plan bölməsi -*** MDU-nun missiyası, vizyonu , bloklar və bloklar üzrə məqsəd və hədəflər haqqında ümumi məlumat verilmişdir.

**Missiya** – Dayanıqlı inkişafa töhfə verən yüksək ixtisaslı kadrlar hazırlamaq, nəticəyönümlü elmi tədqiqatlar aparmaq və cəmiyyətə faydalı sosial xidmətlər göstərmək.

**Vizyon** – Təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilmək.

Universitetin missiya və vizyonuna əsaslanaraq uzunmüddətli dövr üçün məqsəd və hədəflər müəyyən edilmiş və bloklar üzrə yerləşdirilmişdir.

**Təhsil bloku –** əsas məqsəd yüksək keyfiyyətli ali təhsil xidmətləri göstərən qabaqcıl milli universitetlərdən biri olmaqdır və bu istiqamətdə **4 hədəf** müəyyənləşdirilmişdir.

**Hədəflər:**

- Təhsil alanlar üçün cəmiyyətin və əmək bazarının ehtiyaclarına uyğun zəruri bilik və bacarıqların effektiv şəkildə əldə edilməsinə kompleks şərait yaradan keyfiyyətli tədris mühitini təmin etmək və onu davamlı surətdə təkmilləşdirmək;
- Akademik heyətin səriştələrini yüksəltmək;
- Tələbə qəbulu üzrə kəmiyyət və keyfiyyət göstəricilərinin davamlı artımına nail olmaq
- İxtisasların (proqramların) sayını və ali təhsil səviyyələri üzrə əhatəliliyini artırmaq, onları beynəlxalq akkreditasiyadan keçirmək.

**Tədqiqat bloku –** əsas məqsəd ölkənin və bölgənin inkişafına davamlı töhfə verən nəticəyönümlü elmi-tədqiqat fəaliyyətləri həyata keçirmək potensialına sahib olmaqdır.

**Hədəflər:**

- Elmi kadr potensialını inkişaf etdirmək, elm və təhsilin inteqrasiyasını gücləndirmək;
- Milli və beynəlxalq arenada elmi nəşrlərin keyfiyyətini və kəmiyyətini artırmaq, multidisiplinar xarakterli nüfuzlu beynəlxalq elmi jurnala və beynəlxalq elmi konfransa sahib olmaq;
- Universiteti regionun konkret inkişaf problemlərinin həllinə töhfə verən “beyin mərkəzi”nə çevirmək, sifarişlər və qrantlar əsasında həyata keçirilən tədqiqat layihələrinin sayını artırmaq;

- Magistratura və doktorantura səviyyələrində elmi fəaliyyətlərin keyfiyyətini yüksəltmək, “Tədqiqatçı tələbə” konsepsiyasını inkişaf etdirərək tələbələrin tədqiqat fəaliyyətlərində aktivliyini artırmaq.

**İnnovasiya bloku –** əsas məqsəd regional innovasiya ekosisteminin drayverinə çevrilməkdir.

**Hədəflər:**

- Təhsil və tədqiqat fəaliyyətlərində innovasiya yönümlüyü və sahibkarlıq yanaşmasını gücləndirmək;
- İnnovasiya fəaliyyətini dəstəkləyən mexanizmlər yaratmaq və tətbiq etmək;
- Universitet-sənaye və universitet-dövlət əməkdaşlığı çərçivəsində regional texnoloji inkişafa töhfə verən innovasiya aktivliyini gücləndirmək;
- Təhsil alanların innovasiya prosesində fəal iştirakına nail olmaq.

**Sosial blok -** əsas məqsəd sosial məsuliyyəti və xidmətlərin keyfiyyətini artıraraq cəmiyyətin hərtərəfli inkişafına davamlı töhfə verməkdir.

**Hədəflər:**

- Universitetin cəmiyyətdə maarifləndirici və məsləhətçi mövqeyini gücləndirmək;
- Sosial fəaliyyətlərdə çoxşaxəliliyi, inklüzivliyi və davamlılığı təmin etmək;
- Tələbələr və məzunlarla işi təkmilləşdirmək, gənclərin karyera və şəxsi inkişafına dəstək sahəsində fəaliyyətlərin effektivliyini artırmaq;
- Cəmiyyətin ehtiyaclarına uyğun ömürboyu təhsil xidmətləri göstərən regional mərkəzə çevrilmək.

**Dayanıqlı inkişaf və rəqəmsallaşma bloku -** dayanıqlı inkişaf əsaslı “yaşıl” və “ağıllı” universitetə çevrilmək və bu sahədə ölkənin lider universitetləri sırasında yer almaq məqsədi daşıyır.

**Hədəflər:**

- Dayanıqlılıq prinsipləri əsasında resurslardan effektiv istifadəni və sağlam ətraf mühiti təmin edən “yaşıl kampus”a və “yaşıl idarəetmə”yə sahib olmaq;
- Regional, milli və beynəlxalq səviyyədə dayanıqlı inkişafa töhfə verən bilik, bacarıq, dəyər və davranışlar ötürən, “dayanıqlı inkişaf” təfəkkürlü kadr hazırlığını təmin edən ali təhsil mühitini formalaşdırmaq və inkişaf etdirmək;
- Universtetin bütün istiqamətlər üzrə fəaliyyətlərində rəqəmsal və süni intellekt texnologiyalarının geniş tətbiqi əsasında “ağıllı kampus”a və “ağıllı idarəetmə sistemi”nə sahib olmaq.

**İnstitusional inkişaf bloku -** daha güclü institusional potensiala, çevik və səmərəli idarəetmə sisteminə sahib olmaq məqsədi daşıyır.

**Hədəflər:**

- Maddi-texniki bazanı və infrastrukturu yeniləmək və gücləndirmək, maliyyə idarəetməsində səmərəliliyi artırmaq;
- İnsan resurslarının idarə edilməsində səmərəliliyi davamlı artırmaq;

- İdarəetmədə çevikliyi və şəffaflığı artırmaq, təşkilati strukturu davamlı optimallaşdırmaq;
- Strateji inkişaf və daxili keyfiyyət təminatı sistemini qurmaq və davamlı təkmilləşdirmək.

**Beynəlmilləşmə bloku –** əsas məqsəd beynəlmilləşmə səviyyəsi davamlı artan universitetə çevrilməkdir.

**Hədəflər:**

- Potensialın inkişafını və akademik mübadiləni dəstəkləyən beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq proqram və layihələrdə iştirakı artırmaq;
- Universitetin beynəlxalq platformada görünürlük səviyyəsini və imicini yüksəltmək, beynəlxalq nüfuzlu reytinqlərdə mövqeyini davamlı yaxşılaşdırmaq;
- Xarici tələbələrin sayını davamlı artırmaq, təcrübəli xarici professor-müəllimləri universitetdə elmi-pedaqoji fəaliyyətə cəlb etmək;
- Beynəlxalq ikili diplom proqramlarına sahib olmaq.

***II. Vəziyyətin təhlili bölməsi*** - Bu bölmə Mingəçevir Dövlət Universitetinin (MDU) hazırkı vəziyyətini qiymətləndirmək, inkişaf potensialını və qarşılaşdığı çətinlikləri anlamaq üçün hazırlanmışdır. Burada universitetin tarixi, fəaliyyət sahələri, maraqlı tərəflərlə (steykholderlərlə) əməkdaşlığı, struktur quruluşu, resursları və strateji analiz metodları yer alır.

**Universitetin tarixi -** Mingəçevir Dövlət Universiteti 1991-ci ildə Azərbaycan Sənaye Universitetinin Mingəçevir filialı kimi yaradılıb. Daha sonra 1992-ci ildə Mingəçevir Energetika İnstitutu, 1993-cü ildə Mingəçevir Politexnik İnstitutu adlandırılıb. 2015-ci ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə müstəqil universitet statusu alaraq Mingəçevir Dövlət Universiteti kimi fəaliyyətə başlayıb.

**Fəaliyyət Sahələri və Xidmətlər** - MDU üç əsas istiqamətdə fəaliyyət göstərir:

**Təhsil**

- Bakalavriat və magistratura proqramları tədris edilir.
- Təhsil Avropa Kredit Transfer Sisteminə (AKTS) əsaslanır.
- Beynəlxalq proqramlar (Erasmus+) ilə əməkdaşlıq mövcuddur.

MDU tələbələrə geniş ixtisas seçimi və beynəlxalq təcrübə qazanmaq imkanı yaradır.

**Tədqiqat və İnnovasiya**

- 2021-2025-ci illər üzrə 43 elmi tədqiqat mövzusu müəyyən edilib.
- Elmi jurnallar, konfranslar və laboratoriyaların yaradılması planlaşdırılır.
- Startap və innovasiya layihələrinə dəstək verilir.

Universitet yalnız təhsil müəssisəsi kimi deyil, həm də elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərmək niyyətindədir.

**Sosial Xidmətlər**

- Maarifləndirici tədbirlər, könüllülük və idman fəaliyyətləri təşkil edilir.

- Məzunların işlə təmin olunması üçün karyera dəstəyi verilir.
- Regionun mədəni və sosial inkişafına töhfə verilir.

MDU cəmiyyətə xidmət göstərməyi prioritet hesab edir və tələbələrin sosial və peşəkar inkişafına kömək edir.

**Maraqlı Tərəflərin (Steykholderlərin) Təhlili**

MDU-nun daxili və xarici maraqlı tərəfləri vardır:

**Daxili steykholderlər:** Tələbələr, akademik heyət, inzibati heyət.

**Xarici steykholderlər:** Dövlət qurumları, beynəlxalq təşkilatlar, işəgötürənlər, digər universitetlər.

Universitet müxtəlif qurumlarla əməkdaşlıq edərək təhsilin keyfiyyətini artırmağa və tələbələr üçün daha çox imkan yaratmağa çalışır.

**Struktur Daxili Təhlil:**

**Təşkilati Struktur** - Rektor və Elmi Şura universiteti idarə edir. 3 fakültə və 10 kafedra mövcuddur. Universitetin çevik və effektiv idarə olunması tələbələrin keyfiyyətli təhsil almasına şərait yaradır.

**İnsan Resursları** - Akademik heyətin sayı son illərdə artıb. Elmi dərəcəsi olan akademik heyətin xüsusi çəkisi 30%-dir. MDU elmi potensialını artırmağa çalışır, lakin daha çox inkişaf etməyə ehtiyac var.

**Korporativ Mədəniyyət** - Demokratik idarəetmə və əməkdaşlıq mədəniyyəti inkişaf etdirilir. Yeni loqo və vebsayt ilə rebrendinq (bir müəssisənin və ya təşkilatın marka və ya imicini yenidən qurma və ya dəyişdirmə prosesidir. Bu, markanın vizual kimliyini (loqotiplər, rənglər, şriftlər və s.), mesajını, dəyərlərini və ya ümumi təqdimatını yeniləyərək, mövcud bazarda və ya yeni bazarda daha müasir, cəlbedici və uyğun hala gətirmək məqsədi daşıyır.) planlaşdırılır. Universitetin təşkilati mədəniyyəti həm daxili mühiti yaxşılaşdırmaq, həm də xarici nüfuzunu artırmaq məqsədini daşıyır.

**Resursların Təhlili:**

**Fiziki və Texnoloji Resurslar** - 8886,3 m² sahədə 3 tədris binası fəaliyyət göstərir. Yeni kampusun inşası planlaşdırılır. Universitet müasir tədris mühiti yaratmaq üçün yeniliklər etməlidir.

**Maliyyə Resursları** - Gəlirin 67%-i ödənişli tələbələrdən əldə edilir. Universitet maliyyə dayanıqlığını gücləndirmək üçün yeni strategiyalar hazırlamalıdır.

**GZİT (SWOT) Təhlili:**

**Güclü tərəflər** - regionda yeganə ali təhsil müəssisəsi olması, beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsi, akademik heyətin inkişafına verilən önəm.

**Zəif tərəflər** - xarici dil biliklərinin zəifliyi, beynəlxalq layihələrdə iştirakın azlığı, tədqiqat laboratoriyalarının və resursların məhdud olması.

**İmkanlar** - dövlətin təhsilə verdiyi dəstək, regionda sənaye müəssisələri ilə əməkdaşlıq imkanları, yeni kampusun tikilməsi.

**Təhdidlər** - universitetlər arasında rəqabətin artması, yüksək bal toplayan tələbələrin paytaxt universitetlərinə üstünlük verməsi.

**Nəticə** - MDU sürətlə inkişaf edən universitetdir, lakin infrastruktur, akademik heyətin təkmilləşdirilməsi və beynəlxalq əlaqələrin genişləndirilməsi sahəsində bəzi çatışmazlıqları var. Bununla bağlı strateji addımlar atılması nəzərdə tutulur.

***III. Gələcəyə Baxış bölməsi*** – Burada Mingəçevir Dövlət Universitetinin (MDU)

**Missiyası** – "Dayanıqlı inkişafa töhfə verən yüksək ixtisaslı kadrlar hazırlamaq, nəticəyönümlü elmi tədqiqatlar aparmaq və cəmiyyətə faydalı sosial xidmətlər göstərmək".

**Vizyonu** – Təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilmək" qeyd olunmuşdur.

Əsas dəyərlər kimi MDU demokratik prinsiplərə, akademik etika qaydalarına, ictimai və sosial məsuliyyətə sadiq qalaraq fəaliyyət göstərir. Universitet, milli hədəflərə uyğun inkişaf edərək keyfiyyətli təhsil və tədqiqat imkanları yaratmaqla yanaşı, sənaye, dövlət və cəmiyyət arasında əməkdaşlıq ruhunu gücləndirməsi, şəffaflıq, innovasiya və dəyişikliklərə açıq olmaq prinsipini əsas tutaraq təhsildə və elmi fəaliyyətdə müasir yanaşmalar tətbiq etməsi,təbiətə və ətraf mühitə həssas yanaşmaq, effektiv idarəetmə və iştirakçılığı təmin etmək də universitetin gələcək inkişaf strategiyasının əsas istiqamətləri sırasındadır.

***IV.*** **Strateji İnkişaf bölməsi –** Bu bölmədə MDU-nun mövcud vəziyyəti və potensial imkanları təhlil edilərək, universitetin missiya və vizyonuna uyğun məqsəd və hədəflərinə çatmaq üçün nəzərdə tutulan fəaliyyətlər müəyyən edilmişdir.

**Təhsil Bloku:** Təhsil blokunda əsas məqsəd ali təhsilin keyfiyyətini artırmaqdır. Bunun üçün tədris standartları, proqramlar və metodlar mütəmadi yenilənir, tələbəyönümlü təlim texnologiyaları tətbiq olunur. Akademik heyət-tələbə nisbəti beynəlxalq standartlara uyğunlaşdırılır və tələbələrin daxili və beynəlxalq mobilliyi artırılır. Məzunların iş fəaliyyəti izlənir, təcrübə proqramları və akademik məsləhət xidmətləri təkmilləşdirilir. Eyni zamanda, tədris resursları və elektron tədris materialları genişləndirilir, xarici dil, rəqəmsal və yumşaq bacarıqlar inkişaf etdirilir.

**Tədqiqat Bloku:** Elmi-tədqiqat potensialının artırılması məqsədilə akademik heyət beynəlxalq təlimlərə, seminar və təcrübə mübadilələrinə cəlb edilir. Elmi jurnallar və beynəlxalq nəşrlər vasitəsilə universitetin elmi fəaliyyətləri gücləndirilir, multidisiplinar tədqiqatlar və layihələr dəstəklənir. Tədqiqat mərkəzlərinin yaradılması və qrant imkanlarının artırılması da diqqət mərkəzindədir. Eyni zamanda, tədqiqatçı tələbə konsepsiyası inkişaf etdirilir və tələbələrin elmi fəaliyyətləri artırılır.

**İnnovasiya Bloku:** Tələbələr və akademik heyət innovasiya və startap bacarıqlarını inkişaf etdirir, biznes layihələri və müsabiqələr təşkil edilir. Sənaye və dövlət qurumları ilə əməkdaşlıq genişlənir, texnopark ekosistemi qurulur və innovativ fəaliyyətlər təşviq edilir.

**Sosial Blok:** Sosial məsuliyyətin artırılması və xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə maarifləndirici tədbirlər, cəmiyyətin məlumatlılıq səviyyəsinin artırılması və müxtəlif sosial fəaliyyətlər təşkil edilir. Könüllülük, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi, sağlam həyat tərzi və ətraf mühitin qorunması fəaliyyətləri genişlənir. Karyera mərkəzi yaradılır, məzunlar üçün işə düzəlmə tədbirləri həyata keçirilir, tələbələrin sosial və mədəni inkişafı dəstəklənir.

**Dayanıqlı İnkişaf və Rəqəmsallaşma bloku:** Universitetin dayanıqlı inkişaf prinsiplərinə əsaslanaraq "yaşıl" kampus və "ağıllı idarəetmə" konsepsiyaları inkişaf etdirilir. Resursların

effektiv istifadəsi və sağlam ətraf mühitin yaradılması təmin edilir. Rəqəmsal və süni intellekt texnologiyalarının tətbiqi ilə "ağıllı kampus" və "ağıllı idarəetmə" qurulur.

**İnstitusional İnkişaf bloku:** Maddi-texniki bazanın gücləndirilməsi, maliyyə və insan resursları idarəetməsinin təkmilləşdirilməsi məqsədilə yeni kampus inşa edilir, akademik və inzibati heyət qiymətləndirilir və peşəkarlıq səviyyəsi artırılır.

**Beynəlmiləlləşmə:** Universitetin beynəlxalq əməkdaşlıq və akademik mübadiləsini inkişaf etdirmək məqsədilə beynəlxalq əlaqələr gücləndirilir, universitetin beynəlxalq nüfuzu artırılır və beynəlxalq tədbirlərdə iştirak möhkəmləndirilir.

***V.* Əsas performans göstəriciləri bölməsi -** Burada bütün göstəricilər bütün bloklar üzrə ( tələbə sayı, müəllim və tələbə nisbəti,əcnəbi müəllimlər,yüksək bal toplayan tələbələrin sayı,ixtisasların sayı,elmi məqalələrin sayı, layihələrin, startapların sayı, laborotoriyaların sayı və s. ) 2021-ci ildəki vəziyyət və 2030-un hədəfi göstərilir.

***VI.* Maliyyələşdirmə bölməsi -** “MDU 2030: İnkişaf Strategiyası” çərçivəsində fəaliyyətlər universitetin büdcəsi, əldə etdiyi qrantlar və sponsorların maliyyə dəstəyi ilə həyata keçiriləcəkdir.

***VII.* Monitorinq və qiymətləndirmə bölməsi -** "MDU 2030: İnkişaf Strategiyası" çərçivəsində universitetin məqsəd və hədəflərinə çatma prosesinin izlənməsi və qiymətləndirilməsi məqsədilə effektli monitorinq və qiymətləndirmə sistemləri tətbiq ediləcəkdir. Bu prosesdə, universitetin akademik və inzibati strukturlarının fəaliyyətləri, onların hazırladığı və təsdiq etdiyi strateji fəaliyyət planları əsasında həyata keçiriləcək tədbirlərin nəticələri ilə qiymətləndiriləcək. Monitorinq və qiymətləndirmə zamanı, strateji planın məqsəd və hədəflərinə nə dərəcədə nail olunduğu, performans göstəriciləri ilə ölçüləcəkdir. Əgər bu prosesdə çatışmazlıqlar aşkar edilərsə, həmin problemlərin həlli üçün müvafiq tədbirlər görüləcəkdir. Bu yanaşma, universitetin fəaliyyətlərinin davamlı olaraq təkmilləşdirilməsini və strateji məqsədlərə uyğunluğunu təmin edəcəkdir.

**"Bir baxışda strateji plan" və "Strateji inkişaf" bölmələrinin hər ikisində bloklar, məqsəd və hədəflər qeyd olunub. Bu bölmələr arasındakı fərq nədədir? "Bir baxışda strateji plan" və "Strateji inkişaf" dedikdə nə nəzərdə tutulur?**

**"Bir Baxışda Strateji Plan" və "Strateji İnkişaf" bölmələrinin oxşarlıqları:**

- Hər iki anlayış strateji idarəetmə çərçivəsində Mingəçevir Dövlət Universitetinin (MDU) uzunmüddətli inkişaf hədəflərinə istiqamətlənmişdir.
- Universitetin missiyasına və vizyonuna uyğun olaraq təhsil, tədqiqat və innovasiya sahələrində davamlı tərəqqini təmin etməkdir.
- Hər iki konsepsiya idarəetmə qərarlarının elmi əsaslarla formalaşdırılmasını, resursların səmərəli bölüşdürülməsini və dayanıqlı inkişaf prinsiplərinə riayət olunmasını nəzərdə tutur.

**"Bir Baxışda Strateji Plan" və "Strateji İnkişaf" bölmələrinin fərqləri:**

- **“Bir Baxışda Strateji Plan” –** Bu bölmə strateji planın əsas istiqamətlərini ümumi çərçivədə müəyyənləşdirir. Burada universitetin missiyası, vizyonu və dəyərləri təsbit edilir və müxtəlif fəaliyyət sahələri üzrə (təhsil, tədqiqat, innovasiya, sosial məsuliyyət, beynəlmiləlləşmə və s.) strateji məqsədlər və hədəflər müəyyən edilir.
- **“Strateji İnkişaf” –** Bu bölmə isə strateji planın icra mexanizmlərini sistemli şəkildə izah edir. Burada konkret fəaliyyətlər, əsas performans göstəriciləri, maliyyələşdirmə mexanizmləri, monitorinq və qiymətləndirmə strategiyaları yer alır.

Sadə dillə izah etsək “Bir Baxışda Strateji Plan” bölməsində Universitetin gələcəyi üçün nəzərdə tutulmuş “nə etmək lazımdır”, “Strateji İnkişaf” bölməsində isə “necə etmək lazımdır” suallarına cavab verilir. Başqa sözlə strateji plan ümumi yol xəritəsidir, strateji inkişaf isə həmin planın reallaşdırılması üçün konkret addımları və icra mexanizmlərini müəyyənləşdirir.

**MDU 2030 İnkişaf Strategiyası** universitetin modernləşməsini, təhsil və elmi potensialının gücləndirilməsini və beynəlxalq səviyyədə tanınmasını təmin edən əsas sənəddir. Bu planın uğurla həyata keçirilməsi Mingəçevir Dövlət Universitetini Azərbaycanın ən qabaqcıl ali təhsil müəssisələrindən birinə çevirəcək.